# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 yanvar tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə**

"Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 iyun tarixli 164 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 yanvar tarixli 22 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nın 2.9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"2.9. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 mart tarixli 48 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında əlilliyin qiymətləndirilməsi Qaydası"nın 3.7-ci bəndinə əsasən TSEK-in qəbul etdiyi qərarın dəyişdirilməsi barədə qərar qəbul edildiyi halda əlilliyi olan şəxsin Fərdi proqramına yenidən baxılması məqsədilə TSEK həmin şəxsi dəvət edir. Bununla əlaqədar həmin əlilliyi olan şəxsin

əlaqə vasitələrindən birinə (telefon, elektron poçt və ya mobil tətbiqlər vasitəsilə və s.) məlumat göndərilir.”.

**Naxçıvan Muxtar Respublikasının Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 14 iyun 2021-ci il

№ 147